**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI**

# Auditorlar Palatasında 2022-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə

# HESABAT


***Məsul icraçılar:***

**Auditorlar Palatası Aparatının rəhbəri — Q.Bayramov**

**Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi — V.Cavadov**

**Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi — Q.Əhmədov**

**Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri — Z.Almazov**


**Bakı – 2022**

**Auditorlar Palatasında 2022-ci il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə**
**HESABAT**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən məqsədyönlü islahatların və bu sahədə reallaşdırılan siyasətə yaxından dəstək olmaq məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası auditor xidməti bazarında şəffaflığın artırılması, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması, auditorların peşəkarlıq səviyyəsinin və auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və auditə ictimai etimadın gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir və həmin neqativ hallara qarşı mübarizəni qanunvericilik çərçivəsində davam etdirir.

Auditorlar Palatasının 2022-ci il üzrə iş planında həmin sahələr üzrə sorğuların keçirilməsi nəzərdə tutulmuşdur.

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü «Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması» bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının sədri tərəfindən 2021-ci ilin 30 dekabr tarixində təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası tərəfindən keçiriləcək sorğuların 2022-ci il üzrə Qrafiki»nə uyğun olaraq 2022-ci ilin I rübündə auditor xidmətinin sifarişçiləri arasında keçiriləcək sorğuya dair 7 sual və auditor xidmətinin sifarişçilərinə müraciət məktubu hazırlanmış və 2022-ci ilin 1 mart tarixində 3000 sifarişçinin e-mail ünvanlarına göndərilmiş, eyni zamanda elan Auditorlar Palatasının internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

2022-ci ilin 19 aprel tarixinə auditor xidmətinin sifarişçiləri arasında aparılan sorğunun nəticələrinə əsasən, sorğuya daxil olan respondentlərin sayı 158 nəfər və sorğunu cavablandıran respondentlərin sayı 39 nəfər olmaqla ümumi cavablandırma 24,7% olmuşdur.

Auditor xidmətinin sifarişçiləri arasında aparılmış sorğunun nəticələrinin təhlili üzrə hazırlanmış tövsiyələr baxılmaq üçün 2022-ci ilin 20 aprel tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Auditor xidmətinin sifarişçiləri arasında aparılmış sorğunun nəticələrinin təhlili üzrə hazırlanmış tövsiyələr Auditorlar Palatası Şurasının 2022-ci ilin 31 may tarixində keçirilən iclasında müzakirə edilmiş və onun 344/5 saylı qərarı ilə bəyənilmişdir.

Həmin Şura qərarı ilə tapşırılmışdır ki:

- Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) iki həftə müddətində auditor təşkilatları və sərbəst auditorlar tərəfindən audit aparılarkən Azərbaycan Respublikasının qanunvericilik aktlarının, Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə ciddi riayət olunmasının təmin edilməsi və bu sahədə onların məsuliyyətlərinin gücləndirilməsi məqsədilə təkliflərini hazırlayıb təqdim etsin;

- Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Kadr hazırlığı idarəsi (E.Behbudova) iki həftə müddətində peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə auditorların sertifikatlaşdırma və Peşə Təhsili Sistemlərinin təkmilləşdirilməsinə dair təkliflərini təqdim etsinlər;

- Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) 2 həftə müddətində müvafiq meyarlar əsasında sifarişçilər tərəfindən auditor seçimini təmin etmək məqsədilə Palatanın internet səhifəsində auditor seçimi funksiyalarının yaradılmasını təmin etsinlər;

- Kadr hazırlığı idarəsi (E.Behbudova, A.Seyidəliyeva) 200, 240, 250, 500, 520, 540, 560 saylı Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməsinə dair mövzuların auditorların 2022-ci il üzrə ixtisasartırma kurslarının tədris proqramına daxil edilməsini təmin etsin;

- Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsi (R.Cəfərli) 2 həftə müddətində tövsiyə olunan minimum hədlərin beynəlxalq təcrübə, sifarişçilərin, auditor təşkilatlarının, sərbəst auditorların və sorğuların nəticələri nəzərə alınmaqla təkmilləşdirilməsini təmin etsin;

- Daxili auditor (N.Quliyeva) iki həftə müddətində təsərrüfat subyektlərində daxili audit sisteminin yaradılması məqsədilə maarifləndirmə işlərinin həyata keçirilməsi üçün təkliflərini təqdim etsin.

Bu Şura qərarının icrası təmin edilmişdir.

Auditorlar Palatasının sədri tərəfindən 2021-ci ilin 30 dekabr tarixində təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası tərəfindən keçiriləcək sorğunun 2022-ci il üzrə Qrafiki»nə uyğun olaraq 2022-ci ilin II rübündə auditorlar arasında peşə fəaliyyətinə dair keçiriləcək sorğuya dair 9 sual hazırlanmış və 2022-ci ilin 26 may tarixində auditor təşkilatlarının və sərbəst

auditorların e-mail ünvanlarına göndərilmiş, elan isə Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

Auditorlar arasında peşə fəaliyyətinə dair keçirilmiş sorğunun nəticələrinə əsasən, 2022-ci ilin 23 iyun tarixinə sorğuya daxil olan respondentlərin sayı 269 nəfər və sorğunu cavablandıran respondentlərin sayı 87 nəfər olmaqla ümumi cavablandırma 32,3% olmuşdur.

Həmin sorğunun nəticələri təhlil edilmiş və hazırlanmış tövsiyələr baxılmaq üçün 2022-ci ilin 29 iyun tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Auditorlar Palatasının üzvləri arasında peşə fəaliyyətinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı 18 bənddən ibarət Tədbirlər Planı hazırlanmış və Palata sədrinin 2022-ci il 20 iyul tarixli 1/24 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Həmin sərəncamla məsul icraçılara (S.Gülməmmədov, Q.Bayramov, F. Qarayev, N.Talıbov, Q.Əhmədov, V.Rəhimov, E.İbrahimov, V.Cavadov, E.Behbudova, Z.Almazov, R.Cəfərli, N.İsmayılov, M.Hüseynova, E.Təhməzov, K.Hüseynov) tapşırılmışdır ki, Tədbirlər Planında nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.

Tədbirlər Planının 8-ci “Auditorlar Palatasında sahibkarla görüşlərin təşkil edilməsi (müvafiq qurumlarla birgə)” bəndi (icra müddəti - noyabr 2022-ci il və fevral 2023-cü il, məsul şəxslər: N.Talıbov, V.Cavadov, E.İbrahimov, Q.Əhmədov, R.Cəfərli) yerinə yetirilməmişdir.

Bu sərəncamın və Tədbirlər Planının mətnləri Palatanın internet səhifələrində yerləşdirilmiş və icrası hal-hazırda davam etdirilir.

Auditorlar Palatasının sədri cənab V.Novruzov tərəfindən 2021-ci ilin 30 dekabr tarixində təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası tərəfindən keçiriləcək sorğunun 2022-ci il üzrə Qrafiki»nə uyğun olaraq 2022-ci ilin III rübündə Auditorlar Palatasının üzvləri arasında auditdə innovasiyaların tətbiqi və auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsinə dair keçiriləcək sorğuya dair 7 sual hazırlanmış və 2022-ci ilin 2 sentyabr tarixində auditor təşkilatlarının və sərbəst auditorların e-mail ünvanlarına göndərilmiş, elan isə Auditorlar Palatasının internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

Həmin sorğunun nəticələrinə əsasən, 2022-ci ilin 23 sentyabr tarixinə sorğuya daxil olan respondentlərin sayı 210 nəfər və sorğunu cavablandıran respondenlərin sayı 72 nəfər olmaqla ümumi cavablandırma 34,3% olmuşdur.

Auditorlar Palatasının üzvləri arasında auditdə innovasiyaların tətbiqi və auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsinə dair keçirilmiş sorğunun nəticələri təhlil edilmiş və 18 bənddən ibarət hazırlanmış tövsiyələr baxılmaq üçün 2022-ci ilin 28 sentyabr tarixində Palatanın sədri V.Novruzova təqdim edilmişdir.

Auditorlar Palatasının üzvləri arasında auditdə innovasiyaların tətbiqi və auditorun şəxsi kabineti sisteminin təkmilləşdirilməsinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı hazırlanmış Tədbirlər Planı Palata sədrinin 2022-ci il 11 oktyabr tarixli 1/30 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Tədbirlər Planının 5-ci “Auditorlar Palatası tərəfindən məlumatların elektron kargüzarlıq vasitəsilə göndərilməsi” (icra müddəti - oktyabr 2022-ci il, məsul şəxslər: Z.Almazov və struktur bölmələr) və 10-cu “Auditorun şəxsi kabineti sistemində şablon müqavilə və rəy formalarının nümunələrinin yerləşdirilməsi” (icra müddəti - 2022-ci ilin noyabr ayından etibarən, məsul şəxslər: N.Talıbov, Q.Əhmədov) bəndləri yerinə yetirilməmişdir.

Həmin sərəncamla məsul icraçılara (F.Qarayev, N.Talıbov, N.Quliyeva, Q.Əhmədov, V.Rəhimov, E.İbrahimov, V.Cavadov, E.Behbudova, Z.Almazov, R.Cəfərli, M.Hüseynova, N.Əlisoy) tapşırılmışdır ki, Tədbirlər Planında nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.

Hal-hazırda Tədbirlər Planının icrası davam etdirilir. Bu sərəncamın və Tədbirlər Planının mətnləri Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, “Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası tərəfindən keçiriləcək sorğunun 2022-ci il üzrə Qrafiki”nin 4-cü “Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə fəaliyyətinin qiymətləndirilməsinə dair” (icra müddəti – IV rüb) və 5-ci “Auditor xidməti istifadəçiləri ilə sahəvi sorğular”a dair (icra müddəti – il ərzində) bəndlərində nəzərdə tutulan sualların cavabları I, II və III rüblərdə keçirilən sorğularda ətraflı əhatə olunduğuna görə həmin sorğuların keçirilməsi məqsədəmüvafiq hesab edilməmişdir.